# İslam İnqilabının əzəmətli qələbəsinin 45-ci ildönümü və “Fəcr ongünlüyü” ərəfəsi - 31 /Jan/ 2024

İslam İnqilabının Qələbəsinin Fəcr ongünlüyü ərəfəsində İslam İnqilabının Rəhbəri Həzrət Ayətullah Xamenei bu gün (çərşənbə) səhər İmam Xomeyninin (r.ə) qəbrini və Şəhidlər Xiyabanını ziyarət etdi.

İnqilabın Rəhbəri İmam Xomeyninin (r.ə) qəbrinin yanında fatihə oxuyub İran İslam Respublikasının banisi və onun yadigarının xatirəsini əziz tutdu.

Həzrət Ayətullah Xamenei habelə “7 tir hadisəsi”, 08 şəhrivər 1360-cı il tarixində baş nazirin ofisində baş vermiş partlayışda həyatlarını itirmiş şəhidlərin məzarlarını ziyarət edib şəhid Behişti, şəhid Rəcai, şəhid Bahünər və onların şəhid yoldaşlarının xatirəsini hörmətlə andı.

İslam İnqilabının Rəhbəri İslam İnqilabı, Müqəddəs Müdafiə və Hərəmin müdafiəsi yolunda canlarını fəda etmiş şəhidlərin məzarını ziyarət etdi.

Həzrət Ayətullah Xameneinin ziyarət etdiyi şəhidlərdən biri də son vaxtlar sionist rejimin Dəməşqə hücumu zamanı şəhid olmuş şəhid Məhəmmədəmin Səmədinin məzarı oldu.

**Materialdan istifadə edərkən WWW.LEADER.İRsaytına istinad zəruridir**